# Azərbaycanın böyük siyasi uğuru:
## bunu xarici müşahidəçilər də etiraf edirlər

**Noyabrın 1-də Azərbaycanda keçirilən parlament seçkiləri həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda medianın diqqət mərkəzində olan mövzulardandır. Belə ki, mətbuat seçkinin nəticələrini qiymətləndirən yazıları və şərhləri geniş işıqlandırır. Seçkilərin uğurlu nəticələri seçki prosesini izləmək məqsədilə Azərbaycana gələn xarici müşahidə missiyalarının üzvlərinin də açıqlamalarında öz əksini tapır.**



Budəfəki seçkiləri müşahidə etmək üçün ölkəmizə 500-dən artıq xarici nümayəndə gəlmişdir. Onların demək olar ki, hamısı Azərbaycanda baş tutan parlament seçkilərini yüksək qiymətləndirdilər. Müşahidə missiyalarının nümayəndələri birmənalı olaraq vurğuladılar ki, seçkilər ədalətli, demokratik və şəffaflıq mühitində keçirilmişdir. Bu, bir daha Azərbaycan dövlətinin demokratik inkişaf yoluna sadiqliyinin göstəricisi kimi qəbul edilir.

“Bundan öncə Azərbaycanda keçirilən bütün seçkilərin monitorinqi seçki təcrübəsinin təkmilləşdiyini göstərib. Seçkilər seçicilər və seçki komissiyalarının üzvləri üçün rahat keçir. Artıq öncəki seçkilərdə seçki qutularından tutmuş seçki məntəqəsinin təşkilini əhatə edən seçki texnologiyası prezident və parlament seçkilərinin keçirilməsi ilə bağlı bütün beynəlxalq standartlara cavab verib”. Bunu Rusiya Dövlət Dumasının MDB İşləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr üzrə Komitəsinin sədri, MDB Parlament Assambleyasının Müşahidə Missiyasının koordinatoru Leonid Slutski seçkinin nəticələrinə münasibətini açıqlayarkən jurnalistlərə bildirib.







Ölkəmizi davamlı inkişaf edən və artım müşahidə olunan iqtisadiyyata malik ölkə kimi xarakterizə edən L.Slutski qeyd edib ki, bu gün Azərbaycan cəmiyyətinin böyük əksəriyyəti ölkə rəhbəri İlham Əliyevin ardıcıl şəkildə yürütdüyü siyasət ətrafında birləşib. Onun sözlərinə görə, bütün bunlar seçkiləri izləmək üçün gələn Rusiya Dövlət Dumasının bütün üzvləri tərəfindən iqtisadiyyat və sosial sahənin inkişafına yönələn böyük Prezident proqramının tərkib hissəsi kimi qəbul edilir.

Rusiyalı müşahidəçi Azərbaycanda baş tutan parlament seçkilərinə münasibətdə qərəzli mövqe sərgiləyən bir sıra beynəlxalq təşkilatların ünvanına da tənqidi fikirlər səsləndirib. L.Slutski xüsusilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Azərbaycanda parlament seçkilərini müşahidə etməmək qərarına toxunaraq bunu “qəribə qərar” adlandırıb. Halbuki DTİHB vaxtilə ATƏT məkanında müxtəlif səviyyəli seçkilərin demokratikliyini müşahidə etmək üçün yaradılmışdır.

Rusiyalı deputat Qərbin Azərbaycana qarşı münasibətinin Azərbaycan dövlətinin müstəqil siyasətinin müəyyən dairələri razı salmaması ilə izah edib. Onun sözlərinə görə, həmin dairələr davranışları ilə özlərini sanki bugünkü Azərbaycanın və rəhbərliyinin yürütdüyü kursun opponentləri kimi göstərirlər. L.Slutski bunu seçkilərin nəticələrindən asılı olmayaraq, qeyri-obyektiv və destruktiv addım hesab etdiyini bildirib: “Çünki bu xətt Azərbaycan rəhbərliyinin Azərbaycanın postsovet məkanında ən inkişaf etmiş ölkə olmasına, Xəzər regionunda və regiondan kənarda ən ciddi tərəfdaşa çevrilməsinə yönələn addımlarını dəstəkləmək əvəzinə istənilən uğurlarını tənqid və qeyri-obyektiv qətnamələrin qəbulu üçün predmet kimi təqdim olunur”.

L.Slutskinin fikrincə, Milli Məclisə seçkilər Azərbaycan cəmiyyətinin böyük əksəriyyətinin Prezidentin yürütdüyü kursun, dövlət başçısının ətrafında birləşməsini və şübhəsiz ki, bu gün tətbiq olunan seçki texnologiyalarının müasirliyini nümayiş etdirir. Deputat qeyd edib ki, DTİHB əslində, bütün bunları bildiyi üçün seçkiləri müşahidə etməkdən imtina edib. Onlar burada gələcəkdə təzyiq vasitəsi kimi istifadə edə biləcəkləri qüsurların olmayacağını əvvəlcədən bilirdilər: “Neqativ yoxdursa, DTİBH-dən olan həmkarlar da güman ki, belə qərara gəldilər ki, Azərbaycana getməyə ehtiyac yoxdur. Çünki çətin olacaq. Hər dəfə barmaqdan neqativ sormaq daha da çətinləşəcək. Əslində bu neqativ mövcud da deyil. Qaranlıq otaqda qara pişik axtarmaq çətindir, xüsusən də o, orada yoxdursa”.

Qeyd edək ki, seçki prosesində iştirak edən xarici qonaqlar Azərbaycanın bu sahədə böyük təcrübə qazandığını və ciddi yeniliklər tətbiq etdiyini ayrıca vurğulayırlar. Bildirilir ki, seçkilərdə istifadə edilən ən müasir texnologiyalar və üsullar bir çox dövlətlər tərəfindən öyrənilməli və tətbiq edilməlidir.

Bu uğurları nəzərdə tutaraq, Azərbaycanın uğurlarının, xüsusən də seçki təcrübəsinin inkar edilməsini DTİHB-dən olan həmkarlarına yaraşdırmadığını deyən L.Slutski də qeyd edib ki, bununla da DTİHB Azərbaycanın imicinə, MSK-ya qarşı deyil, özünə qarşı işləyir:



“ATƏT DTİHB özünü Qərbdən gələn sifarişləri yerinə yetirən qurum kimi göstərir. Bu mövqe DTİHB-ni gözdən salır və deməyə əsas verir ki, bugünkü DTİHB artıq tükənib. DTİHB siyasi sifarişləri yerinə yetirmək əvəzinə obyektiv, qərəzsiz və peşəkar qiymətləndirmə, o cümlədən ATƏT ölkələrində müxtəlif səviyyəli seçkilərin qiymətləndirilməsi üçün işləməlidir”, - deyə o vurğulayıb.

Rusiyalı deputatın sözlərinə görə, bu gün Azərbaycan dövləti və cəmiyyəti o qədər dinamik inkişaf edir ki, bunu hansısa yolla inkar etmək cəhdləri Azərbaycana qarşı deyil, bu siyasəti həyata keçirməyə çalışan beynəlxalq təşkilatlara və strukturlara qarşı yönəlir. O qeyd edib ki, parlamentə seçkilər Azərbaycan dövlətinin bugünkü uğurlarının, o cümlədən seçki qanunvericiliyi səviyyəsinin və onun demokratik seçkilərin beynəlxalq hüququn standartlarına uyğunluğunun etiraf edilməsində növbəti mərhələ olacaq. Bunu inkar edənlər əslində, özlərini ədalətsiz və qərəzli apararaq, ictimai fikirdə mənfi imic formalaşdırırlar.

“Bu gün Azərbaycan dövləti və cəmiyyəti istənilən insinuasiyalardan və gerçəkliyi inkar etmək cəhdlərindən güclüdür. Əminəm ki, bu, demokratik yolla seçilmiş parlamentdir və inanıram ki, Azərbaycana qarşı, habelə parlament seçkilərinə qarşı istənilən çirkli və əsassız böhtanlar istənilən beynəlxalq meydançalarda fiaskoya uğrayacaq. Bu cür cəhdlər artıq iflasa uğrayıb”,- deyə L.Slutski bildirib.

Bu və digər xarici müşahidəçilərin Azərbaycanda keçirilən parlament seçkilərinə verdikləri obyektiv qiymətləndirmə göstərir ki, ölkəmiz demokratiya yolunda dönmədən böyük uğurlara imza atır.

✍ **Taleh Turqut,**
***“İki sahil”***